# ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİK TEXNİKASI ÜZRƏ BÖYÜK MÜHƏNDİS VƏZİFƏSİ ÜÇÜN MÖVZULAR

**1. Əməyin mühafizəsi**

- Əməyin mühafizəsi üzrə görülən tədbirlər;
- Əməyin mühafizəsi vəziyyətinə nəzarət (nəzarət edən dövlət orqanları);
- İşçilərin təlimatlandırılması, biliklərin yoxlanılması və bunun üçün müəssisədə yaradılan şərait;
- Kollektiv və fərdi mühafizə vasitələri və onların sahələrdə tələb olunması üçün nişanlar;
- İstehsalat travmaları və peşə xəstəlikləri;
- Təhlükəli və zərərli istehsalat amilləri.

**2. Əməyin təhlükəsizliyi**

- Əməyin təhlükəsizliyi üzrə görülən tədbirlər və istifadə olunan vasitələr;
- Əməyin təhlükəsizliyi üzrə tələblər;
- Təhlükəsizlik nişanları.

**3. Əməyin sağlamlığı**

- İşçilərin qidalanması və qidalanmaya olan tələblər;
- İşçilərə tibbi xidmətin təşkili;
- Bədbəxt hadisə və peşə xəstəlikləri.

**4. İş yerlərinin attestasiyası**

- İş yerlərində attestasiyanın keçirilməsi qaydası;
- Attestasiyanın keçirilməsi zamanı yaradılan komissiya və nəticələrin sənədləşdirilməsi.

**5. Sanitariya-gigiyena**

- İstehsalat otaqlarına və binalarına sanitariya tələbləri;
- Sanitar-gigiyena qaydaları və bu qaydalara nəzarət edən idarə.

## ƏDƏBİYYAT:

1. Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456
2. Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526
3. Neft emalı və neft-kimya sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2012. Səh. 151
4. Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

**1. Əməyin mühafizəsi üzrə iş yerlərinin attestasiyasının keçirilməsinə kim məsuliyyət daşıyır?**
A) Baş mühəndis
B) Direktorun Əməyin mühafizəsi üzrə müavini
C) Sahə rəisləri
D) Direktorun birinci müavini
E) Müəssisənin rəhbəri

**2. İstehsalat binalarında adambaşına düşən istehsalat həcmi neçə $m^3$–dən az olmamalıdır?**
A) 1,5 $m^3$-dən
B) 5 $m^3$-dən
C) 35 $m^3$-dən
D) 25 $m^3$-dən
E) 15 $m^3$-dən

**3. Səs-küy, vibrasiya, rütubət və maqnit sahəsi kimi təhlükəli və zərərli amillər hansı qrupa aid edilir?**
A) Psixofizioloji
B) Radioloji
C) Bioloji
D) Fiziki
E) Kimyəvi

**4. Sanitar-gigiyenik xasiyyətnamə hansı dövlət qurumu tərəfindən verilir?**
A) Dövlət Əmək Müfəttişliyi
B) Səhiyyə Nazirliyi
C) Gigiyena və Epidemiologiya Mərkəzi
D) Fövqəladə Hallar Nazirliyi
E) Müəssisənin tibb məntəqəsi

**5. Qoruyucu kəmərin istismar yararlılığını əməyin təhlükəsizliyi üzrə işçilər neçə vaxtdan bir yoxlamalıdır?**
A) Üç rübdə bir dəfə
B) İki rübdə bir dəfə
C) Rübdə beş dəfə
D) Rübdə bir dəfə
E) Rübdə iki dəfə

NÜMUNƏ